# Qərbin ksenofobiyasının Qarabağda nümayişi

**Qərb sivilizasiyası Qarabağ timsalında öz ikili standartlarını açıq- aydın şəkildə nümayiş etdirdi. Gündəlik multikulturalizm fikirlərinin səsləndirilməsinə baxmayaraq, Qərb dünyaya birmənalı ismarış göndərir: müsəlmanların müqəddəsatını və mədəni abidələrini məhv etmək olar, xristianlarınkını – əsla!**

1988-ci ildə, 14-minlik əhalinin 90%-nin azərbaycanlıların təşkil etdiyi [1] Şuşa şəhərində rəsmi olaraq 184 memarlıq abidəsi qeydə alınmışdır [2].

8-9 may 1992-ci ildə erməni silahlı qruplaşmaları Şuşa şəhərini ələ keçirdi.

Erməni tərəfindən hərbi əməliyyatlarda iştirak edən Ovik Vardumyan, 2012-ci ildə, Şuşanın ələ keçirilməsi üzrə əməliyyata həsr olunmuş kitab nəşr etdi [3]. O, erməni tərəfindən hərbi əməliyyatlarda iştirak edən digər şəxslərin xatirələrindən və erməni silahlı qruplaşmalarının komandanlığının sənədlərindən istifadə etmişdir. Vardumyanın qələmindən 8-9 may 1992-ci il hadisələrinin təsvirindən belə bir nəticəyə gəlmək olar ki, xüsusi olaraq XVIII əsrə aid edilən şəhər qalası atəşə tutulurdu, döyüşlər həmçinin məscid ətrafında aparılırdı[4].

11 may 1992-ci ildə, Azərbaycan prezidentinin vəzifələrini müvəqqəti icra edən Yaqub Məmmədov Rusiya prezidenti Boris Yeltsinə müraciət göndərdi. Həmin müraciətdə qeyd olunurdu ki, *“Şuşa şəhəri demək olar ki, darmadağın edilib»* [5].

Həmin ay, Azərbaycanın mədəniyyət naziri, Polad Bül-Bül oğlu UNESCO-nun direktoru Frederik Mayora, Beynəlxalq Muzeylər Şurasının baş katibi, Elizabet de Porta, habelə, Avropa ölkələrinin mədəniyyət nazirlərinə müraciət göndərdi [6]. Müraciətdə Şuşanın mədəni- tarixi abidələrinin müdafiə

edilməsi xahiş olunurdu. Azərbaycanın naziri qeyd edirdi:



2 «БАКИНСКИЙ РАБОЧИЙ»

КАРАБАХ: ВСЕ ДЛЯ ПОБЕДЫ!

СОКРОВИЩА ШУШИ В РУКАХ ВАРВАРОВ

**Шуша в руках армянских агрессоров. «Колыбель азербайджанской музыки», «Консерватория Кавказа», «Сокровищница национальной культуры» — так издавна называли этот чудо-город. И вот он захвачен врагом. Жестоким, коварным, неистощимым на злобу и подлость. Враг этот уже на протяжении полутора столетий ведет коварную борьбу против приютившего его некогда народа. Крадет его музыку, культуру, фальсифицирует историю. А вот сейчас варварски разрушает его заповедные города и села.**

РАДИОСТАНЦИЯ «Маяк» на всю страну, на весь мир вещает о том, что в Шуше, в каком-то подвале найдены исконно армянские старинные ковры и утварь, свидетельствующие о принадлежности города и его культуры армянскому этносу.

Какая низкая ложь! Ложь от начала до конца! Армянские вандалы растаскивают богатства Шуши. В подвале дома Мехмандаровых хранились все ценнейшие экспонаты филиала Азербайджанского музея ковра. Работница филиала Хиджран Алиева тайно (тайно потому, что не было дано указания «сверху»!) перевезла из Шуши в Барду, а затем в Баку 145 ценнейших карабахских ковров, составлявших экспозицию, и 39 изделий ювелирного искусства. Не успела эта истинная патриотка (из Шуши за неделю до штурма были эвакуированы все женщины) захватить 60 металлических предметов. Все это было уложено в старинные хурджуны и мафраши.

Эти «трофеи», а также сугубо азербайджанские ковры других музеев, и дали повод говорить об изделиях, доказывающих якобы «историческую давность» проживания армян на карабахской земле?!

Варвары есть варвары! Вандализм, разрушение памятников архитектуры, уничтожение шедевров материальной культуры — в обычаях наших врагов.

— Мы не допустим присвоения ценностей, опись которых, снимки которых есть у нас на руках! Мы поднимем всю мировую общественность против этих варваров, — решительно заявила в беседе с корреспондентом «Бакинского рабочего» Ройя Тагиева — директор Музея ковра.

Не одним знаменитым музеем славилась Шуша. Здесь с огромной любовью, бережностью создавались мемориальные музеи Узеира Гаджибекова, Бюль-Бюля, здесь находился богатый краеведческий музей, музей Шуши, были развернуты литературно-исторические экспозиции, связанные с именами Вагифа, Натаван, Наввабa.

Не может сдержать гнева жена Бюль-Бюля — Аделя ханум, своими руками создававшая экспозицию мемориального музея в Шуше. Нет предела возмущению Рамазана Халилова, неизмеримо много сделавшего для музея Узеира Гаджибекова. Свой гневный протест выражают поэты, писатели, художники...

В эти дни Министерство культуры республики стало тем центром, куда обращаются деятели культуры. Есть же международные конвенции, есть же международные суды и арбитражи, которые не должны допустить присвоения чужих духовных сокровищ! Опыт Лейпцига, Дрездена и его знаменитой галереи, возрождение из небытия ленинградских дворцов со всеми их сокровищами говорят о многом.

— Шуша была и будет нашей. Не успокоится сердце азербайджанца, пока этот город не будет возвращен! Ну, а сейчас надо думать о сохранении, сбережении и возвращении реликвий, — говорит министр культуры Азербайджана Полад Бюль-Бюль оглы.

Он передал нам текст обращения, которое будет разослано на имя Генерального директора ЮНЕСКО господина Фредерика Майора, генерального секретаря Международного Совета музеев (ИКОМ) госпожи Элизабет де Порт, министров культуры, деятелям культуры и искусства многих стран мира.

В нем, в частности, говорится:

**...Новое невосполнимое бедствие нанесено армянскими агрессорами 9 мая — штурмом захвачен город Шуша — сокровищница культуры, историко-архитектурный заповедник, «Народная консерватория Кавказа», давшая миру многих гениев национального искусства.**

**В этом красивейшем городе, некогда курортном, богатом памятниками древней архитектуры и искусства, были созданы музеи истории города и Карабаха, литературный музей Карабаха, мемориальные музеи основоположников азербайджанской профессиональной музыки и вокального искусства Узеира Гаджибекова и Бюль-Бюля, филиал Государственного музея ковра, Шушинская картинная галерея. Эти музеи имеют в своем фонде тысячи уникальных экспонатов, принадлежащих нашему народу и вместе с тем относящихся к истории культуры вообще.**

**Захватчики варварски, мощью танков и современных ракетных орудий уничтожают, стирают с лица земли эти ценности и совершают акты мародерства, присваивают чужую землю, чужую культуру.**

**История знает много фактов, когда глобальные войны начинались с региональных конфликтов. Карабахский вопрос уже перестал быть только нашей бедой, но еще можно остановить цепную реакцию войны.**

**Сегодня она ведется не только против военных соединений. Война, вопреки всем существующим нормам, вопреки Гаагской конвенции, здравому смыслу, морали и совести, ведется против безоружного населения, против беззащитных детей, таких же беззащитных памятников нашей культуры.**

**Обращаясь к Вам, убедительно просим проникнуться тревогой за судьбу нашего народа, судьбу созданных им на протяжении веков уникальных памятников культуры. Мы уверены в Вашем понимании, сочувствии, желании возродить мир, сохранить красоту на азербайджанской земле.**

**Просим Вас использовать весь свой авторитет, повлиять на правительства, парламенты своих стран, сделать все возможное, чтобы остановить кровопролитие и вандализм.**

**Министр культуры Азербайджанской Республики Полад БЮЛЬ-БЮЛЬ ОГЛЫ.**

*“Bu çox gözəl, bir zamanlar kurort şəhəri olmuş, qədim memarlıq və incəsənət abidələri ilə zəngin olan şəhərdə şəhərin və Qarabağın tarixi muzeyləri, Azərbaycan peşəkar musiqisinin və vokal incəsənətinin baniləri olan Üzeyir Hacıbəyovun və Bül-Bülün memorial muzeyləri, Dövlət xalça muzeyinin filialı, Şuşa rəsm qalereyası yaradılmışdır. Bu muzeylərin fondlarında xalqımıza və, bununla birgə, ümumilikdə, mədəniyyət tarixinə aid olan minlərlə unikal eksponat var. İşğalçılar vəhşicəsinə, tank və müasir raket silahları gücünə, həmin dəyərləri məhv edir, yer üzündən silir və soyğunçuluq aktları həyata keçirir, yad torpaqları, yad mədəniyyəti mənimsəyirlər“.*

*Polad Bül-Bül oğlunun müraciətinin yekun hissəsində belə deyilirdi: “Sizə müraciət edərək, israrla, xalqımızın taleyinin, əsrlər boyunca onlar tərəfindən yaradılmış unikal mədəniyyət abidələrinin taleyinin qayğısına qalmağınızı xahiş edirəm… Sizdən, qan axıdılmasının və vəhşiliyin dayandırılması üçün, bütün nüfuzunuzdan istifadə etməyinizi, ölkələrinizin hökumətlərinə, parlamentlərinə təsir göstərməyinizi xahiş edirik“.*

Biz Fransanın, Almaniyanın, Britaniyanın və BAŞ-ın 12 aparıcı nəşriyyatının 9 may 1992-ci ildən 30 iyun 1992-ci ilədək olan müddət ərzində bütün nəşrlərini tədqiq etdik [7]. Onlardan heç biri Şuşadakı Azərbaycan mədəni abidələrinin dağıdılması barədə, qısa belə olsa, heç bir qeyd nəşr etməmişdir. Onlarda Azərbaycanın mədəniyyət nazirinin beynəlxalq ictimaiyyətə müraciəti barədə də heç bir şey qeyd edilməmişdir. Qərbin aparıcı xəbər agentliklərinin, məsələn, France Press, Associated Press, Reuters UK, Reuters US, UK Press, eyni dövr ərzində məlumatları ilə də analoji vəziyyət mövcud idi. UNESCO-nun, BMT-nin, Avropada təhlükəsizlik və əməkdaşlığa dair müşavirənin, Avropa Şurasının Parlament assambleyasının rəsmi press- relizlərinin tədqiqi göstərmişdir ki, Şuşadakı Azərbaycan mədəni abidələrinin qorunub saxlanması problemi onları da maraqlandırmırdı (bu barədə heç bir qeyd yox idi).

1992-ci ilin may-iyun aylarında, münaqişə zonasına BMT Təhlükəsizlik Şurasının [8], Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə müşavirənin [9], Qırmızı xaçın [10] xüsusi missiyaları, habelə, Fransadan humanitar nümayəndə heyəti [11] gəlmişdir. Onların nümayəndələrindən heç biri Şuşa şəhərinin erməni silahlı qruplaşmaları tərəfindən ələ keçirilməsi nəticəsində Azərbaycan mədəni abidələrinin qorunub saxlanması problemi haqqında heç bir bəyanat vermədi.

8 may 2019-cu ildə, Azərbaycan xarici işlər nazirliyi Şuşa şəhərinin işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yaydı. Həmin bəyanatda qeyd olunurdu:

*“Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəniyyət və dini abidələrin dağıdılması, məhv və təhqir edilməsi, mənimsənilməsi üzrə məqsədyönlü siyasəti çərçivəsində, yalnız Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək tarixi və mədəni abidə dağıdılıb, məbədgah və məscidlər təhqir və vandalizmə məruz qalıb, çox sayda nadir əlyazma nümunələri məhv edilib. Bunların içərisində Pənah xanın sarayı və kitabxanası, xan*

*sarayı və karvansara, “Aşağı Gövhərağa” və “Saatlı” məscidləri, Vaqifin mavzoleyi, Natavanın evi və digər abidələr vardır*“.

Qərb KİV-lərindən və beynəlxalq təşkilatlardan bu məlumatın açıqlanmasına dair heç bir reaksiya verilmədi.

8 noyabr 2020-ci ildə, Azərbaycan ordusu Şuşa şəhərini ələ keçirdi. 10 noyabr tarixində, Rusiya, Azərbaycan və Ermənistan rəhbərləri arasında Qarabağda hərbi əməliyyatlara son qoymuş razılaşma imzalanmışdır. Bu sənədə uyğun olaraq, Azərbaycanın 1990-cı illərin əvvəlindən başlayaraq erməni işğalı altında olan 6 rayon üzərindəki suvereniteti bərpa olunmuşdur. BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli dörd qətnaməsinə əsasən, bütün bu rayonlar beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınmışdır.

17 noyabr tarixindən etibarən, UNESCO-nun baş direktoru Odri Azule, The Metropolitan Museum of Art-ın prezidenti Den Vays, Ümumdünya kilsələr şurasının katibi İoan Sauka, Qarabağdakı xristian abidələrinin qorunub saxlanmasına görə dərin narahatlıqlarını bildirmişdirlər

19 noyabr tarixində, Aİ-nin xarici siyasət və təhlükəsizlik üzrə Ali nümayəndəsi Jozel Borrel “Dağlıq Qarabağda və onun ətraflarında mədəni və dini irsin qorunub saxlanması və bərpa olunmasının” əhəmiyyətini bildirmişdir.

Həmin gün, Fransa prezidenti Emmanuel Makron *«bu regionun dini və mədəni irsinin qorunması üçün qərarlı tədbirlər görmək istəyi» barədə bildirdi*. Fransa Senatının 25 noyabrda qəbul etdiyi qətnaməsində Qarabağ ərazisində “*erməni mədəni və dini irsinin qorunub saxlanmasının*” zəruri olduğu qeyd olunurdu. Senatın xarici işlər, müdafiə və silahlı qüvvələr üzrə komissiyasının sədri, Kristian Kambon bildirmişdir [19:44], ki *«UNESCO-nun Fransada yerləşən qərargah- mənzili dərhal bu regiondakı bütün mədəni və dini irsin bütövlüyünü və toxunulmazlığını təmin etməlidir»*. Milli məclisin deputatı

Valeri Buaye əlavə etmişdir ki, [20:36]: «…*Qarabağın qəlbində yerləşən insanlıq xəzinəsinin qorunub saxlanması üçün, biz indi və burada reaksiya verməliyik». «Əziz həmkarlar, yalnız Ermənistana deyil, bütün bəşəriyyətə məxsus olan irs sizinlə ortaq irsimizdir»*, – bunu Senatda "Respublikaçılar" fraksiyasının sədri Brüno Retayo qeyd etmişdir [19:34].

15 noyabrdan 30 noyabradək olan müddət ərzində Qarabağda xristian abidələrinin qorunub saxlanması problemi haqqında aşağıda qeyd olunan Qərb nəşriyyatları məlumat vermişdir: The Wall Street Journal, The New York Times, Sky News, Daily Mail, Deutsche Welle, Le Figaro, Pro Oriente, The Art Newspaper, Ostkirchen, Le Point, La Croix, Eurasia Review, France Info, Le Progress, Geo Fr, Smithsonian Magazine, VOA News, Kathpress.

1992-ci ildə beynəlxalq təşkilatların, Qərb hökumətlərinin və KİV-lərinin, Şuşa şəhərində Azərbaycan mədəni abidələrinin qorunub saxlanması kontekstində susması və 2020-ci ildə onların xristian obyektlərinin qorunması ilə bağlı birgə xoru Qərb "multikulturalizminin" əsl üzünü açıq- aydın şəkildə nümayiş etdirir.

**Qeydlər**

1. Şəhər hakimiyyətinin verdiyi məlumatlara görə, 1988-ci ilin ortalarında, Şuşa əhalisinin sayı 14.000 nəfərə yaxın təşkil edirdi [«Bakinskiy raboçiy» qəzeti 28.07.1988, səh. 3].
2. «Bakinskiy raboçiy» qəzeti 29.05.1988, səh. 2.
3. Vardumyan O. Şuşanın azad edilməsi. Edit-Print nəşriyyatı, 2012.
4. Memarlıq abidələrinin atəşə tutulmasına və ya hərbi əməliyyatların bilavasitə olaraq onların yanında aparılmasına Vardumyanın kitabının 38, 45, 46-48, 50 səhifələrində işarə olunur.
5. Azərbaycan prezidentinin vəzifələrini müvəqqəti olaraq icra edən Yaqub Məmmədovun Rusiya prezidenti Boris

Yeltsinə müraciət göndərməsi barədə məlumat “Novoye russkoye slovo” rusdilli amerikan nəşriyyatının 12.05.1992-ci il tarixli nəşrində, səh. 5-də mövcuddur.

6. Azərbaycanın mədəniyyət naziri Polad Bül-Bül oğlunun müraciətinin mətni “Bakinskiy raboçiy” qəzetində 15.05.1992-ci ildə, səh. 2-də nəşr edilmişdir. 1992-ci ilin sentyabr ayı üzrə 9(44) saylı “Armyanskiy vestnik” nəşrində qeyd olunub ki, bu müraciət UNESCO-ya Azərbaycanın xarici işlər nazirliyi tərəfindən, həmin ilin may ayının 11-də (yəni, erməni silahlı qruplaşmaları Şuşa şəhərini işğal etdikdən iki gün sonra) göndərilmişdir.
7. Biz aşağıdakı nəşriyyatların 9 may 1992-ci ildən 30 iyun 1992-ci ilədək olan müddət ərzində Şuşa şəhərinin mədəni, dini və tarixi abidələri haqqında hər hansı məlumatın olub- olmadığını yoxlamışıq: Le Monde, L’express, Le Figaro, Journal de Montreal, Les Echos, Sud Ouest, Church Times, The New York Times, Washington Post, The Telegraph, Frankfurter Rundschau, National Zeitung.
8. BMT-nin Təhlükəsizlik şurasının Qarabağ münaqişəsi zonasına BMT Katibliyinin əməkdaşı F.Vendrellin başçılıq etdiyi xüsusi missiyanın göndərilməsi haqqında qərarı haqqında Moskvanın “İzvestiya” qəzeti 13.05.1992-ci ildə bildirmişdir [səh. 2]. Həmin nəşriyyat 25.05.1992-ci ildə bu nümayəndə heyətinin Bakıya gəldiyini bildirmişdir [səh. 2].
9. Qarabağ münaqişəsi zonasına Avropa təhlükəsizlik və əməkdaşlıq üzrə müşavirə təşkilatının Mario Rafaellinin başçılıq etdiyi missiyasının göndərilməsi barədə 9 may 1992-ci ildə “Novoye russkoye slovo” rusdilli amerikan nəşriyyatı bildirmişdir [səh. 1].
10. Beynəlxalq Qırmızı xaçın nümayəndə heyətinin Bakıya səfəri barədə 25.05.1992-ci ildə Moskvanın “İzvestiya” qəzeti bildirmişdir [səh. 2].
11. Fransadan Bakıya humanitar nümayəndə heyətinin getməsi barədə 25.05.1992-ci ildə Moskvanın “İzvestiya” qəzeti

bildirmişdir [səh. 2].